"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

**PRES RELİZ**

# "Azərinşaatservis" MMC-yə məxsus Şpal zavod fəaliyyətə başladı.

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2006/05/20*

Tikintisinə 2005-ci ildə başlanan Şpal zavod 2006-cı ilin may ayının ortalarında istehsalata başladı. "Azərinşaatservis" MMC-yə məxsusu bu zavod Xəzər dənizi hövzəsində müasir standartlara cavab verən yeganə və Qafqazda ilk belə müəssisədir.

Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən Şpal zavodun ümumi ərazisi 62 240 $m^2$, istehsal ərazisi isə 2 904 $m^2$-dir. Ümumi dəyəri 4 820 000 ABŞ dolları olan zavod tamamilə Almanyanın Walter Beton GmbH şirkətindən idxal edilmiş avadanlıqlarla təchiz edilib. 100-ə yaxın insanın işlədiyi bu zavod ildə 240 000 dəmir-beton şpal istehsal etmək gücündədir. Bu isə il ərzində 75-80 km yeni dəmiryolu tikintisi üçün şpal ehtiyacının ödənilməsi deməkdir. Zavodda istehsal prosesi inkişaf etmiş ölkələrdə geniş yayılmış Vaslov sisteminə uyğun olaraq həyata keçirilir. Məhsul istehsalında əsasən yerli xammaldan istifadə olunur. Yalnız xüsusi gərginliyə malik olan və şpalın daxilində elastiklik yaradan metal məmulat İtaliyadan gətirilir.

Tikinti-quraşdırma işləri başa çatdıqdan sonra zavodda sınaq məqsədiylə istehsal edilmiş məhsulun nümunələri Avropanın tanınmış laboratoriyalarında sınaqdan uğurla çıxmışdır.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmir yolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmir yolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 2082087, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**